**SİNAM MMC-nin direktoru**
**Əbülfət Rəhmanova**

Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reystri Xidmətində FARABI(BTMMN ) layihəsi üzrə SERP(Müəssisə Resurslarının İdarə olunması) proqram təminatının tətbiqinə dair

## RƏY MƏKTUBU

SERP proqram təminatı Daşınmaz Əmlakın Dövlət Reystri Xidmətində 20 noyabr 2014-cü ildən tətbiq edilir.Bu vaxtdan etibarən SİNAM-ın işçilərinin dəstəyi ilə həm kadrların uçotu, həm də mühasibatlıq tam olaraq SERP-də aparılır. Kadrlar şöbəsi və mühasibatlığın məlumatları bir bazada yığıldığına görə, istənilən məlumatı tez bir zamanda əldə etmək olur.

Əmək haqqının hesablanması çox asanlaşıb və vaxta qənaət edilir. Pensiya fonduna verilən B1 və B3 hesabatları sistemdən avtomatik alınaraq göndərilir.

Anbar, istismarda olan əsas vəsaitlər və azqiymətlilərin uçotu sistemdə çox sadə qurulmuşdur ki, bu da mühasiblərə işi dəqiq və səhvsiz yerinə yetirməyə imkan verir. Əsas vəsaitlər və mal material haqqında hesabatlar asan əldə edilir.

Dövlət Xəzinədarlıq Agentliyinin portalına göndərilən sənədlər sistemdən avtomatik alınır.

Büdcə təşkilatlarının Maliyyə Nazirliyinə ilin sonunda təqdim etdiyi maliyyə hesabatları il ərzində aparılan əməliyyatların nəticəsində avtomatik yaranır və bu da hesabatların vaxtında operativ surətdə təqdim olunmasına zəmin yaradır.

**Hörmətlə,**

**Azərbaycan Respublikası Əmlak Məsələləri**
**Dövlət Komitəsinin yanında Daşınmaz**
**Əmlakın Dövlət Reyestri Xidmətinin**
**Maliyyə şöbəsinin müdiri-baş mühasib** **Babək Əhmədli**

AZƏRBAYCAN RESPUBLİKASI • ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ • SƏNƏDLƏR ÜÇÜN